Gəncədə elektron sağlamlıq kartı tətbiq edilir

U.ƏLİQIZI

Artıq Gəncədə "Elektron sağlamlıq kartı"sisteminin tətbiqinə başlanılıb. Dünyaya yenicə göz açan körpələrə bir neçə həftədir ki, doğum şəhadətnaməsi ilə yanaşı, sağlamlıq kartları da verilir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 iyun 2006-cı il tarixli 142 və 143 saylı qərarları ilə təsdiq edilmiş "Tibbi müayinə kartı sisteminin tətbiqi qaydaları"na əsasən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən elektron sağlamlıq kartı və tibbi müayinə kartı sistemləri layihələrinin həyata keçirilməsi ilə əlaqədar olaraq, Gəncə şəhərində bu sistemdən yararlanacaq bütün müəssisələr (1 və 2 saylı Doğum Evləri, 1 və 2 saylı Uşaq Xəstəxanaları, 1, 2, 3 və 4 saylı Uşaq Poliklinikaları, 4 saylı təsərrüfat hesablı poliklinika və Gigiyena və Epidemiologiya Mərkəzi) internet xəttinə qoşulub, 2 saylı Doğum Evində, 1 saylı Uşaq

Xəstəxanasında və 1 saylı Uşaq Poliklinikasında CDMA telefonları quraşdırılıb. Yeni sistemin tətbiqi ilə əlaqədar olaraq müvafiq əməkdaşlar treninqlərdə iştirak ediblər.

İlkin mərhələdə 2007-2008-ci illərdə doğulmuş körpələr üçün nəzərdə tutulan elektron sağlamlıq kartlarının sonrakı mərhələdə digər yaş qrupundan olan uşaqlar üçün də tətbiqi nəzərdə tutulur.

Gəncə şəhər Səhiyyə İdarəsinin baş pediatrı Yeganə Həsənovanın sözlərinə görə, elektron kartlarda körpənin dünyaya gəldiyi gündən keçirdiyi xəstəliklər, edilən peyvəndlər, xəstəlik zamanı aldığı müalicələr, müxtəlif preparatlara qarşı olan həssaslığı və digər informasiyalar yer alacaq. Yeganə Həsənova kartda olan informasiyaların iki hissəyə bölündüyünü, birinci qrup informasiyaların bütün həkimlər üçün açıq olduğunu, xüsusi şifrələnmiş hissədə isə yalnız müəyyən sahələrə (məsələn, HİVAİDS) aidiyyəti olan həkimlərin oxumasının mümkün olacağını bildirib: "Artıq valideynlərin övladları ilə birlikdə xəstəxana və poliklinikalara "anket daşımasına" ehtiyac yoxdur. Onlar sağlamlıq kartını gətirməklə, uşaq haqqında bütün informasiyaları gətirmiş olurlar".

Gəncə şəhər Səhiyyə İdarəsi rəisinin müavini Akif Zərbəliyevin verdiyi məlumata görə, Gəncə şəhəri üzrə 2007-2008-ci illərdə doğulan körpələrin ümumi sayı təxminən 5100 nəfərdir. Artıq 1000 ədəddən çox kart gətirilib, 1500 kart isə sifariş verilib. Bu ilin sonunadək 2007-2008-ci illərdə doğulanların hamısına kartların paylanması nəzərdə tutulur. Lakin bu sahədə bəzi çətinliklər də özünü göstərməkdədir. Belə ki, bəzi ailələrdə rəsmi nikahın olmaması, bəzi valideynlərin isə şəxsiyyət vəsiqələrinin olmaması (bu halda mərkəzi baza əməliyyatları qəbul etmir), eləcə də bəzi anaların bu məsələyə maraq göstərməməsi sistemin yenidoğulmuşların hamısına tətbiqini ləngidir.

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com